**AZƏRBAYCAN RESPUBLİKASININ**
**DÖVLƏT TURİZM AGENTLİYİ**

**AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİ**

MƏHƏRRƏM ZÜLFÜQARLI

## Yer üzündən silinmiş müdafiə istehkamı

# QUBA QALASI

## (1747-1870)

*Azərbaycan Turizm və Menecment Universiteti*
*Elmi Şurasının 31 may 2023-cü il tarixli*
*iclasının qərarı ilə (pr. №07) nəşr olunur.*

**BAKI – 2023**

**Müəllif:** *t.ü.e.d., prof.* **Məhərrəm Zülfüqarlı**

**Elmi redaktor:** *f.e.d., prof.* **Asif Hacıyev**

**Rəyçi:** *AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun baş direktoru, Dövlət mükafatı laureatı, t.ü.e.d., prof.* **Kərim Şükürov**

**Məhərrəm Zülfüqarlı. Yer üzündən silinmiş müdafiə istehkamı Quba qalası (1747-1870).** – Bakı: Mütərcim, 2023. – 44 s.

*Kitab çar Rusiyası tərəfindən yer üzündən silinmiş Quba qalasının tarixinə həsr olunub. Kitabda Quba qalası ilə yanaşı Azərbaycanın digər qalaları haqqında da qısa məlumatlar verilib. Kitab 16 ildən artıq tədqiqatların nəticəsində ərsəyə gəlib. Uzun araşdırmalardan sonra yer üzündən silinmiş Quba qalasının 1811-ci ilə aid planının əldə olunmasını tədqiqatın uğuru hesab etmək olar. Bu plan yaxın gələcəkdə qala divarlarının maketinin hazırlanması, yeraltı tunellərin bərpa edilib turistlərin istifadəsinə verilməsi işində səlahiyyətli qurumlara yaxından kömək göstərə bilər. Kitab ali təhsilin bakalavr, magistrant, doktorant pillələrində təhsil alanlar və geniş oxucu kütləsi üçün nərədə tutulub.*

$M\frac{4306020000}{026}$ 164-23

© M.Zülfüqarlı, 2023

# MÜDƏRİCAT

ÖN SÖZ........................................................................................ 4

AZƏRBAYCANIN QƏDİM MÜDAFİƏ İSTEHKAMLARI ........................................................................ 7

YER ÜZÜNDƏ SİLİNMİŞ QUBA QALASI (1747-1870)......................................................................... 20

# Ön söz

Azərbaycanın 5 min illik dövlətçilik tarixinin müxtəlif dövrlərini özündə yaşadan çoxlu sayda abidələr mövcuddur. Belə abidələr içərisində mədəniyyət və ticarət mərkəzləri olan şəhərləri yadelli hücumlardan müdafiə etmiş qala-istehkamlar mühüm əhəmiyyətə malikdir. Bu mühüm abidələrə misal olaraq Bakı, Gəncə, Şuşa, Quba, Dərbənd, İrəvan, Şəki, Qəbələ, Lənkəran, Şəmkir və digər qala-istehkamlarını göstərə bilərik. Bu tarixi abidələrin bəziləri bu günümüzə qədər gəlib çatsa da, çox təəssüf ki, bəziləri dağıdılmış, hətta bilərəkdən tarixdən silinmişdir. Tarixdən silinmiş belə abidələrdən biri də Quba qalasıdır.

Uzun illər Quba şəhərini düşməndən mühafizə etmiş və 1870-ci ildə rus çarının fərmanına əsasən sökülərək tarixdən silinmiş qalanı yenidən yaddaşlara qaytarmaq üçün 16 ildən artıqdır ki, Quba şəhərinin qala divarları ilə bağlı elmi tədqiqatlar aparırıq. Bu tədqiqatlarda **Azərbaycan Turizm və Menecment Universitetinin və Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının əməkdaşları yaxından iştirak ediblər**. Bu məqasədlə dəfələrlə Quba rayonunda ezamiyyətdə olmuş, Tarix Diyarşünaslıq Muzeyinin əməkdaşları ilə, rayon sakinləri ilə çoxsaylı görüşlər keçirmiş, dəyərli məlumatlar toplamış və qala divarlarının keçdiyi yerləri müəyyənləşdirmişik. Həmin görüşlər barədə çəkilmiş şəkillər kitabın arxasında verilmişdir. Görüşlərdə məlum ol-

muşdur ki, Quba şəhərində fəaliyyət göstərən Tarix Diyarşünaslıq muzeyində Dərbənd şəhərinin qala divarlarının maketi olduğu halda Quba qalasının nəinki maketi, heç layihəsi də yoxdur.

Araşdırmaların nəticəsi olaraq "Unudulmuş qəhrəman Quba qalası" adlı məqalə 2008-ci ldə "525-ci qəzetdə"nəşr olunmuş [13], aidiyyatı qurumlar qarşısında məsələlər qaldırılmışdır. Bundan sonra bizim rəhbərliyimiz ilə "İctimai Problemlərin Tədqiqi Assosiyası" tərəfindən 2020-ci ilin iyul-oktyabr aylarında Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yardımı ilə "Quba qalasının yerinin müəyyən edilməsi, onun layihəsinin hazırlanması və qala daxilində geniş ictimaiyyətə məlum olmayan yeraltı tunellərin bərpa edilməsi təşəbbüsü" adlı layihə həyata keçirilmişdir [5,16 sentyabr 2020].

Layihənin yekunları "Quba qalası – yer üzündən silinmiş tarix (1747-1870)" adlı elmi məqalədə [14] öz əksini tapmış, bu barədə video film hazırlanaraq sosial şəbəkələrə qoyulmuşdur[https://www.youtube.com/watch?v=pEstDOKf9mE]. Layihənin yekunları ilə bağlı bir sıra aidiyyatı qurumlara rəsmi məktublarla müraciət olunmuşdur.

Həmin layihə həyata keçirilərkən Quba qalasının layihəsini əldə etmək mümkün olmadığına görə assosiasiyamızın mütəxəssiləri tərəfindən toplanmış materiallar əsasında qalanın təxmini layihəsi hazırlanmışdır.




*Quba qalasının təxmin layihəsi*

Böyük fərəh hissi ilə qeyd etmək olar ki, uzun araşdırmalardan sonra yer üzündən silinmiş Quba qalasının 1811-ci ilə aid planını əldə etmək mümkün olub. Fikrimizcə bu yaxın gələcəkdə qala divarlarının maketinin hazırlanmasında, yeraltı tünellərin yerini müəyyənləşdirməkdə səlahiyyətli qurumlara yaxından kömək ola bilər.

İnanırıq ki, Quba qalası ilə bağlı araşdırmalarımız səlahiyyətli qurumların diqqətini cəlb edəcək, Quba qalasının maketinin hazırlanması, yeraltı tunellərin bərpası işlərinə başlanılacaq. Bütün bunların regionda mədəni irsin bərpası ilə yanaşı, turizmin inkişafında da böyük rol oynayacağı şübhəsizdir.

# Azərbaycanın qədim müdafiə istehkamları

Azərbaycan strateji və coğrafi baxımdan əlverişli bir ərazidə yerləşməsi, təbii sərvətlərlə zəngin olması daim yadelli işğalçıların diqqətini cəlb etmişdir. Buna görə də Azərbaycan ərazisində tarixən inşa edilən böyük şəhərlər mühafizə istehkamları olan qala divarları ilə əhatə olunurdu. Bunlardan günümüzə qədər gəlib çatmış qalalar qədim tariximiz haqqında insanların obyektiv, dolğun məlumat əldə etməsində yaxından köməklik göstərir. Bunlardan Bakı, Şuşa, Dərbənd, Şəki və s. şəhərlərin qala divarlarını göstərə bilərik.



***Bakı qalası və ya İçərişəhər***

Açıq səma altında muzey kimi fəaliyyət göstərən İçərişəhər 22 hektar ərazidə amfiteatr üslubunda inşa edilib. Xəzər dənizi sahilindəki kiçik təpə üzərində yerləşən şəhər hündürlüyü 8-10, eni 3,5 metr olan qala divarları ilə əhatə olunmuş-

dur. Arxeoloji qazıntılar zamanı tapılmış e.ə. III-I əsrlərə aid küpə, e.ə. IV-I əsrlərə aid saxsı qab qırıqları, dəmir ox ucluqları, dəmir dövrünə aid gil qadın fiquru və antik dövrə aid sütun altlıqları İçərişəhərin şəhər kimi formalaşma dövrünü ən geci antik dövrlə eyniləşdirməyə imkan verir.

Miladın I əsrindən etibarən Bakı artıq kiçik, lakin mükəmməl liman şəhəri kimi mövcud idi. VIII-IX əsrlərdə isə İçərişəhər ərazisində sənətkarlıq və ticarət geniş inkişaf etmişdi. XII əsrdə güclü zəlzələ nəticəsində Şamaxı şəhərinin dağılmasından sonra Azərbaycanın şimal-şərqində yaranmış ilkin feodal dövləti olan Şirvanşahlar dövlətinin (VI-XVI əsrlər) hökmdarı I Axsitan iqamətgahını Bakıya köçürür. Bu köçürmədən sonra İçərişəhərin həyatında dönüş dövrü başlayır. Şirvanşahların hakimiyyəti dövründə Bakıda çoxlu inşaat işləri həyata keçirilir və şəhər inkişaf edir. XII əsrdə qala divarları inşa edilməklə şəhərin müdafiə sistemi gücləndirilir. XV əsrdə Şirvanşahların iqamətgahının tikintisinin başa çatmasından sonra şəhərin ictimai-siyasi və mədəni mərkəz kimi rolu xeyli artır [43].




**Şuşa qalası**

Şuşa qalası dəniz səviyyəsindən 1300-1600 metr hündürlükdə yerləşən və üç tərəfdən sıldırım qayalarla əhatə olunan dağ yaylasında tikilib. Qarabağ xanı Pənahəli xan 1752-ci ildə yeni qalanın tikintisinə başlamaq haqqında əmr verib və 1756-cı ildə zəruri işlər başa çatdırıldıqdan sonra Qarabağ xanlığının paytaxtı buraya köçürülüb.

Qala divarının uzunluğu 2,5 kilometrdir, onların da üzərində 17 bürc vardır. Qalanın ətrafında əhəmiyyətli yerlərdə müdafiə qəsrləri tikilib. Qalanın inşasında çay daşı, yumurta, əhəng məhlulundan istifadə olunub. Möhkəm qala olan Şuşa şəhəri Qarabağ xanının adı ilə əvvəl Pənahabad adlandırılıb. Bir qədər sonra isə şəhər Şuşa adlandırılır. Bu ad diyarın saf, qeyri-adi dərəcədə şəffaf dağ havasının rəmzi olan "şüşə" sözündən götürülüb. Şuşa təmiz havası və bulaqları ilə zəngindir. Burada tarixən İsa bulağı, Saxsı bulaq, Şor bulaq, Səkili bulağı, Şəmilin bulağı və s. bulaqlar mövcuddur. Şuşa qalası Azərbaycan memarlığının ən gözəl incilərindən biridir. Qala dairəvi mühafizə bürclərinə malikdir. Qala yaxınlığında onu xarici aləmlə əlaqələndirən yüksək memarlıq keyfiyyətləri olan körpü də inşa edilib ki, Qala körpüsü kimi tanınır. Qalanın üç qapısı var: Gəncə, İrəvan, Ağoğlan qapıları [44].



*Dərbənd qalası*




*Dərbənd qalasının layihəsi*
*(Quba tarix diyarşünaslıq muzeyinin eksponatı)*




*Dərbənd qalasının layihəsi*
***(Quba tarix diyarşünaslıq muzeyinin eksponatı)***

Dərbənd sözü türk və fars dillərində mövcud olan "dar" və "bənd" sözlərinin birləşməsindən yaranaraq "dar keçid" mənasını verir. Ərəb mənbələrində Dərbənd "Bab əl-Əbvab" (qapılar qapısı və ya ən böyük qapı) kimi göstərilir.

Uzunluğu 700 m olan qala, gil məhlulun üstü doldurularaq tikilmişdir. Qeyri-bərabər olan divarların hündürlüyü 6,5 ilə 20 m arasında, qalınlığı 3,5 m -ə qədərdir.

Arxeoloqlar və tanınmış tədqiqatçı tarixçilərdən bəziləri Dərbəndin 3 min, bəziləri isə 5 min il yaşı olduğunu söyləyirlər. Amma bu qədim türk yurdunda – Dəmirqapı Dərbənddə aparılan son qazıntı işləri onun eramızdan 4-5 min il əvvəl salındığını göstərir.

Dərbəndin adı ilk dəfə eramızdan əvvəl 6-cı əsrdə yunan coğrafiyaşünasları Qekatey və Miletski tərəfindən çəkilib. Farslar bu şəhəri Darbənd (Qapı), Azərbaycan türkləri isə Dəmirqapı Dərbənd və ya sadəcə olaraq Dərbənd (Dar bənd) adlandırıblar.

Hələ e.ə. VI əsrdə antik müəlliflər Mada (Midiya) sərhədlərini təsvir edərkən “Kaspi qapısı” adlı keçidi xatırlamışdılar. Sonralar ayrı-ayrı qaynaqlarda “Xəzər qapısı", "Alban qapısı”, “Hun keçidi”, “Qafilqaz qapısı”, "Dərbənd qapısı” kimi müxtəlif adlar daşımış həmin keçidin qədim dövr və orta əsrlərdə böyük hərbi-strateji əhəmiyyəti olmuş, onu əldə saxlamaq bu regionun dövlətlərinin həmişə diqqət mərkəzində dayanmışdı. [47]

Tarixi mənbələrə əsasən, V əsrdə Sasani hökmdarı II Yezdəgirdin (438-455-ci illər) zamanında hazırkı qalanın yerində olan istehkamlar əsasında Dərbənd qalasından dənizə qədər bütün keçidlərin qabağı kəsilərək, təpənin zirvəsinədək uzanan qala divarları ucaldılıb. Qala divarları əvvəlcə çiy kərpicdən inşa olunsa da, daha sonralar I Xosrov Ənuşirəvanın (531-579-cu illər) dövründə daşdan tikilməyə başlamış, 567-ci ildə, başqa bir fərziyyəyə görə isə, 547-ci ildə başa çatdırılmışdır. Qalada aparılan arxeoloji qazıntı materialları göstərir ki, XI-XIII əsrin əvvəllərində “Dəmir qapı” Dərbənddə qızğın şəhər həyatı olmuş, sənətkarlıq və ticarət, bir sıra ölkələrlə əmtəə-pul münasibətləri inkişaf etmişdi. [45]



*Şəki qalası*

Hacı Çələbi xanın dövründə (1743-1755) tikilmiş Şəki qalasının divarlarının ümumi uzunluğu 1300 m, ərazisinin relyefi və müdafiə əhəmiyyəti nəzərə alınaraq qalanın cənub-dan hündürlüyü 8 metr olduğu halda, şimala doğru 4 metrə enir. Qala divarlarının qalınlığı 2.2 m-dir. Qalanın cənub və şimal tərəflərdən iki darvazası və mühafizəsi üçün nəzərdə tutulmuş bürcləri vardır [46].

Azərbaycanın qədim tarixi abidələrindən olan müdafiə istemkanları, qalaların bir hissəsi bu günümüzə qədər gəlib çatsa da, çox təəssüf ki, bəziləri dağıdılmış, hətta bilərəkdən tarixdən silinmişdir. Azərbaycanın qalalarının bəziləri bu gü-nə qədər gəlib çatmasa da, onlardan bəzilərinin layihələrini,

maketlərini, tablo və foto şəkillərini əldə etmək mümkündür. Belə tarixi abidələrimizə misal olaraq Təbrizin Ərk qalası, Gəncə, Lənkəran, İrəvan və s. qalaları göstərə bilərik.



*Ərk qalasının planı (Sefer ibrahim, Public domain)*



*Gəncə qalası (1804-cü il)*




*Lənkəran qalasının layihəsi*




*Lənkəran qalasının layihəsi*




*İrəvan qalasının planı*



*İrəvan qalasının maketi*



*İrəvan qalasının maketləri*




*İrəvan qalası*



*İrəvan qalası*



*İrəvan qalasının divarları (XX əsrin 30-40-cı illəri)*



*İrəvan qalasının divarları (XX əsrin 30-40-cı illəri)*

Azərbaycanın bəzi şəhərləri də vardır ki, onların tarixdə mövcud olmuş müdafiə istehkamları – qalalar işğalçılar tərəfindən sökülüb, yer üzündən silinməklə yanaşı onların layihələri, makentləri, tablo və foto şəkilləri də məhv edilmişdir. Tarixdən silinmiş belə abidələrdən biri də Quba qalasıdır.

# Yer üzündə silinmiş Quba qalası (1747-1870)

Azərbaycanda dövlət tərəfindən qorunan qədim tarixə malik çoxlu sayda yerli və beynəlxalq əhəmiyyətli tarixi abidələr var. Lakin bugünümüzə qədər gəlib çıxmayan, işğalçılar tərəfindən dağıdılaraq yer üzündən silinmiş abidələrimiz də mövcud olmuşdur ki, bu gün onlar haqqında yalnız tarixi mənbələr vasitəsilə məlumatlar əldə edə bilirik. Belə abidələrdən biri çar Rusiyası tərəfindən dağıdılmış, hazırda əhaliyə naməlum olan Quba qalasıdır. Bəzi tarixi mənbələrdə Quba qalası, Qudyal qalası kimi də təqdim olunur. Məsələn, Rus tarixçisi V.Konistantinov qalanı Qudyal qalası (yeni Quba) kimi qeyd etmişdir [32].

Bundan başqa Şeşpərmahalı kədlilərinin general-mayor Reuttaiyula 1837-ci il tarixdə etdikləri şikayətin bir neçə bəndində də Quba qalası, Qudyal qalası kimi göstərilmişdir [17]. Tarixi mənbələrə əsasən qeyd etmək olar ki, Quba xanlığının ərazisi, bu əraziyə aid olan kəndlər çox qədim tarixə malik olsalar da, Quba qalası və onun içərisindəki şəhər XVIII əsrin əvvələrində inşa edilmişdir.

Azərbaycanın qədim tarixi və mədəniyyət mərkəzlərindən biri olan Qubanın mərkəzində Bakının İçəri şəhəri kimi Hüseynəli xan tərəfindən 1747-ci ildə inşa edilmiş qala divarları olmuşdur. Xanlığın mərkəzini Xudatdan Qudyal çayının sağ sahilində yerləşən indiki Quba ərazisinə köçürərəkən Hüseynəli xan müdafiə məqsədilə şəhərin qala divarlarını inşa

etdirmişdir. Çar Rusiyasının yeritdiyi müstəmləkə siyasətinə uyğun olaraq Cənubi Qafqazda 1868-ci ildən başlayaraq bir sıra şəhərlərin müdafiə istekamları olan qala divarları sökülməyə başlamışdır. 1870-ci ildə Quba şəhərinin də qala divarları məhz bu siyasətin qurbanı olmuş və bununla da xalqımızın daha bir tarixi abidəsi məhv edilmişdir [39, s.129].

Azərbaycan ərazisində tarixən çiy kərpiçdən tikilmiş çoxlu sayda abidələr mövcud olmuşdur. Bunlardan Şomutəpə, Sarıtəpə, Qarğalartəpə (Qazax rayonu), Qaraköpəktəpə (Füzuli rayonu), Gavurqala (Ağdam), I və II Kültəpə (Babək rayonu), Qaratəpə (Beyləqan rayonu), Sudaqılan (Mingəçevir şəhəri), Antik Qəbələ (Qəbələ rayonu) və s. abidələri göstərmək olar [30].

Quba qalası daxilindəki tikililərin əksəriyyəti və yeraltı tunellər bişmiş kərpiçdən tikildiyi halda, qala divarları çiy kərpicdən inşa edilmişdi. Hazırda Qubanın mərkəzində yerləşən XIX əsrə aid Səkinəxanım, Hacı Cəfər və Cümə məscidləri, Gümbəzli hamam və digər abidələr qala divarlarının içərisində olmuşdur.

Bu gün Qubaya gələn qonaqların, hətta yerli əhalinin əksəriyyətinin, xüsusilə gənclərin işğalçılara qarşı mübarizə rəmzi olan Quba qalası və onun harada olması haqqında demək olar ki, heç bir məlumatı yoxdur. Yəqin ki, hər il Qubaya istirahətə gedən yerli və xarici turistlərin ağlına belə gəlmir ki, bu şəhərin mərkəzində qala divarları olub. Hətta hərdən adamda elə təəssürat yaranır ki, sanki tarixi mənbələrdə adı çəkilən Quba qalası heç olmamış, onun yerini müəyyən etməyə ümid etməyə belə dəyməz. Lakin "ümidsizliyin özündə də

çoxlu ümidlər var" atalar sözlərini əsas götürərək naməlum, unudulmuş Quba qalası haqqında araşdırmalara başladıqda çox bulanıq sular durulmağa başlayır.

Quba şəhəri və ətraf kəndlərdə söhbətlər apardığımız çoxlu sayda yaşlı sakinlərin bəziləri Qala divarlarının şəhərin hansı hissəsindən keçdiyini təxmini də olsa göstərə bilməsi gələcəkdə Qala divarlarının bərpasına olan ümidləri artırır. Qubanın yaşlı şəxsləri bildirirlər ki, son vaxtlara qədər ətraf kəndlərdən olan əhalidən Qubaya gedərkən hara getdiyini soruşduqda, "Qalaya gedirəm" deyə cavab verirmişlər. Deməli yerli əhalinin az da olsa müəyyən hissəsi öz abidəsini unutmamış və qala haqqında məlumatları nəsildən nəsilə keçirərək bu günə qədər gətirib çatırmışlar.

Quba qalası haqqında tarixi mənbələrdə kifayət qədər məlumat var. Hətta Azərbaycanın şimal torpaqlarını vahid dövlət halında birləşdirmək uğrunda həyatını qurban vermiş, görkəmli tarixi şəxsiyyət Fətəli xana həsr olunmuş filmdə də Quba qalası təsvir olunur.

Çar Rusiyasının müstəmləkə siyasətinə qarşı baş vermiş məşhur 1837-ci il Quba üsyanı haqqında yazılı mənbələrdə də qala haqqında məlumat verilib. Həmin məlumatda qeyd olunur ki, "Üsyançılar tərəfindən xan seçilmiş Hacı Məhəmməd Qubaya yaxınlaşdı və onun dörd verstliyində düşərgə saldı. Avqustun 30-da Qubanın mühasirəsi başlandı. Şəhər qala divarları ilə əhatə olunmuşdu" [1, s.89].

Qubanın qala divarları və qalanın mövcud olduğu dövrdə Quba şəhəri haqqında müxtəlif tarixi mənbələrdə məlumatlar var. Bu məlumatlara əsasən 1796-cı ildə rus işğalçı or-

dusunun komandanı V.Zubovun rəhbərliyi ilə işğalçı yürüşdə iştirak etmiş hərbçi tarixçilərdən F.F. Simanoviç, A.Q.Srebrov, İ.T. Drenyakin, P.Q.Butkov, A.İ. Axverdovun əsərlərində rast gəlmək olur.[21, 22, 23, 24, 25, 26, 28, 29, 32 və s.]

Bundan başqa "Qafqaz təqvimi" adlı digər rus sənədlərində də qala divarları ilə əhatəyə alınmış Quba şəhəri haqqında məlumatlar var [27, 31, 32]. Bu mənbələr Rusiyanın işğalçılıq siyasətinə xidmət etdiyindən birtərəfli olmalarına baxmayaraq Qubanın XVIII əsrin axırı – XIX əsrlər tarixinə aid bəzi qiymətli məlumatları həmin mənbələrdən almaq mümkündür. Bu mənbələrlə yanaşı Tiflisdə rus dilində nəşr olunmuş "Quba xanlarının sərəncamları" [37] adlı kitab da Quba haqqında qiymətli tarixi mənbə hesab olunur.

V.Konistantinov qeyd edir ki, 1744-cü ildə Quba qalası Hüseynəli xan tərəfindən tikilib. Hüseynəli xan xanlığın mərkəzini Xudatdan Qudyal Qalasına (Yeni Quba) köçürüb. 1851-ci ildə Quba qalasının yanında 2588 desyatin yararlı torpaq var idi. Şəhərin tikililəri və yəhudi qəsəbəsi Sloboda ilə birlikdə 104 desyatin ərazini əhatə edirdi. Meşələr, kolluqlar və otlaq sahələri 1138 desyatin təşkil edir. 1044 daş ev, 151 taxta ev var idi. Tanınmış xarici tacirlərin 58, xırda yerli tacirlərin isə 560 obyekti var idi. Yerli müsəlman əhalinin ticarət dövrüyyəsi 50.000 rubl təşkil edirdi. 1826-cı ildə Abbas Mirzənin 10 günlük və 1837-ci ildə üsyançıların hücüumu dövrlərində rus qoşunları qalada müdafiə olunmuşlar.

1831-ci ildə Qala ilə yəhudi Sloboda qəsəbəsini birləşdirən 126 sajen uzunluğunda taxta körpü tikilmişdi. Quba qalasının və yəhudi Sloboda qəsəbəsində daimi yaşayan əhalinin

sayı: kişi cinsindən olanlar 5226, qadın cinsindən olanlar 3917, yəni ümumilikdə cəmi 9143 nəfər idi.

Əhalinin milli və dini tərkibi aşağıdakı kimi olub:

Müsəlmanlar: kişi 5747, qadın 2897.

Yəhudilər: kişi 1315, qadın 1297.

Provoslavlar: kişi 488, qadın 48

Daimi yaşayan ermənilər: kişi 52, qadın 11

Kənardan gələnlər: 130

Katoliklər: 120

Qalada 50 dərzi, 16 başmaqçı, 16 zərgər, xəncər-bıçaq düzəldən, 9 çarıxçı, 2 lülpüsat (odlu silah düzəldən), 27 dəmirçi, 6 qalayçı, 64 papaqçı, 8 dülgər, 11 bənna, 23 çörəkçi, 20 dabbaxçı, 8 boyaqçı, 11 kürəxanaçı, 23 dəllək var idi. Mənbədə Qalada fəaliyyət göstərən məmurlar haqqındada məlumat var. Həmin mənbədə qeyd olunur ki, 1831-ci ildə Qalada 23 kişi, 21 qadın məmur, 15 kişi, 17 qadın qanunların icraçısı var idi ki, bunlardan 9 kişi, 6 qadın könüllü muzdlu xaricilər idi [32, s.334-339].

P.Q.Butkovun yazdığına görə Quba xanlığı 1796-cı ildə 8 mahaldan ibarət idi. Bunlar Quba, Rustov, Müşkür, Şabran, Səadan, Bərmək, Xınalıq, Buduq mahalları idi. Bu dövrdə Quba xanlığında 6364 həyətdən ibarət 245 kənd olmuş, bu kəndlərdə 23147 nəfər əhali yaşamışdı. Əhalinin əksəriyyəti türk dilində danışırmış [25].



*Qədim Quba şəhərinin mərkəzi meydanı*

1796-cı ildə V.Zubovun komandanlığı altında rus qoşunları Dərbənd və Quba istiqamətində hücuma keçərkən Şeyx Əli xana Ağa Məhəmməd şah Qacara qarşı birlikdə müdafiə üçün sazış bağlamağı bir neçə dəfə təklif etsələr də rədd cavabı almışlar. Şeyx Əli xan bildirmişdi ki, rus imperatiriça-

sının rus qoşunlarının onun ərazisinə daxil olması haqqında fərmanını tanımır. Quba yaxınlığında dayanmış Qacar ordusunun möhtəşəm gücünü bilmək lazımdır. Rusların təklifinin qəbulu Qacar ordusu tərəfindən böyük dağıntılara səbəb olar və bundan az saylı rus hərbiçiləri də ziyan çəkərlər. Əgər rus ordusu çoxlu sayda gəlsə, onda qan axıdılacaq.

Rus qoşunlarının Dərbənd şəhərinə buraxılması tələbinə isə Şey Əli xan belə cavab verib ki, bu cavabı rusların Quba qalası ilə bağlı tələblərinə də aid etmək olar:

"Mən bunu edə bilmərəm. Çünki rus qoşunlarının şəhərə daxil olarsa, onlar mənzillərdə yerləşdirilməlidir. Bizim qanunlarımıza görə başqa dindən olanların evə buraxılması qəti qadağandır. Bizim adətlərə görə həyat yoldaşlarımız naməhrəmlə, başqa dindən olanlarla qarşılaşa bilməzlər. Bundan əhali arasında böyük sarsıntılar ola bilər" [29].

Qubada əhali sayının digər şəhərlərlə müqayisəsi sübut edir ki, hətta XIX əsrin ikinci yarısında Bakıda neft sənayesi sürətlə inkişaf etdiyi dövrdə Qubada əhalinin sayı və artım səviyyəsi Bakıdan az fərqlənmişdi. Məsələn, əgər Qubada 1854-1857-ci illərdə 7907 nəfər yaşayırdısa, bu dövrdə Bakıda 8374 nəfər, Gəncədə 15081, Şamaxıda 19733, Şəkidə 17945, Salyanda 6746 nəfər, Şuşada 15194 nəfər sakin yaşayırdı. 1874-cü ildə, yəni 20 il sonra Qubada 11313 (əhali artımı 141,7%), Bakıda 14577 (185,3%), Gəncədə 18505 (124%), Şamaxıda 24133 (122,9%), Şəkidə 20917 (117%), Salyanda 9088 (133,9%), Şuşada 20552 nəfər (156,1%) əhali yaşayırdı [38].

Quba qalası haqqında Azərbaycan tarixçilərindən Abbasqulu Ağa Bakıxanov, İsgəndər bəy Hacınski, Şahin Fazil,

T.Mustafazadə, Q.Abdullayev, A.N.Mustafayev, D.Axundov, S.İbişov, A.Əlixanlı, M.Xəlilov və başqaları öz əsərlərində dəyərli məlumatlar veriblər [2, 3, 4, 6, 7, 8, 9, 10, 12, 18, 19, 20].

Qeyd olunan mənbələrdə əsasən Quba qalasının tarixi haqqında məlumat verilir. Lakin bir tikili kimi qalanın əhatə etdiyi sahənin və divarların ölçüləri, hansı materialdan tikilməsi və s. haqqında bu mənbələrdə məlumata rast gəlmək olmur. Bu baxımdan Quba qalası haqqında mənbələr içərisində görkəmli memar, AMEA-nın müxbir üzvü Şamil Fətullayev-Fiqarovun rus dilində nəşr olunmuş "XVIII əsrin sonu – XIX əsrdə Quba şəhər tikintisinin inkişafı" adlı məqaləsi istisna təşkil edir [5; 39].

İstedadlı alim Şamil Fətullayev-Füqarovun əsərləri Azərbaycanın XVIII-XIX əsrlərdə şəhərlərinin memarlığının öyrənilməsində mühüm əhəmiyyətə malikdir [38, 39, 40, 41, 42]. Quba şəhərinin qala divarları haqqında onun tədqiqatlarını isə hələlik yeganə mənbə hesab etmək olar. Görkəmli alimin soyadının da Quba qalası kimi işğalçıların zavalına gəlməsi diqqəti cəlb edir. Sanki Quba qalası kimi Şamil Fətullayevin soyadındakı Fiqarov soyadı da dağıntıya məruz qalıb. Şamil Fətullayev-Fiqarov ad və soyadını eşitikdə insanlarda bu soyadın Azərbaycanlı soyadından fərqli bir soyadı olması qənaəti yarada bilər. Lakin bu məsələni araşdırdıqda abidələrimiz kimi adlarımızın, soyadlarımızın da rus işğalçıları tərəfindən bilərəkdən saxtalaşdırılmasına, şüurlardan silinməsinə çalışılmasına aid yeni bir faktın üzə çıxarılmasına nail olmaq mümkündür.

Həqiqət isə bundan ibarətdir ki, akademik Şamil Fətullayev Dərbəndin tanınmış şəxsiyyətlərindən olan, milyonçu, xeyriyyəçi Hacı Zülfüqar bəyin nəslindəndir. Lakin Azərbay-

can dilini bilməyən, savadsız bir rus məmurunun Zülfüqarov soyadını bilərəkdən Fiqarov yazmaqla görkəmli alimin soyadını saxtalaşdırmışdır. Stalin dövründə isə alimin ana babası onu Hacı Zülfüqarbəyovun nəvəsi kimi represiyalardan qorumaq üçün ona özünün Fətullayev soyadını vermişdir [5, s.51]

Beləliklə Zülfiqarbəyov, Zülfiqarbəyli, Zülfiqarov və ya Zülfiqarlı kimi yazılmalı olan soyad Fiqarov kimi onun soyadına əlavə olunmuşdur. Yəni bu cür saxtalaşdırmalar və repressiya təhlükəsi olmasaydı biz yəqin ki, görkəmli alimi Şamil Zülfüqarbəyli kimi, özünün həqiqi soyadı ilə tanıyardıq.

Dağıstan, Gürcüstan, Qərbi Azərbaycan və digər ərazilərdə yaşamış soydaşlarımızın bir çoxunun bu cür saxtakarlıqlarla rastlaşmasına, bu ərazilərdə tarixi abidələrimizin, yer adlarımızın, şəxs adları və soyadlarımızn saxtalaşdırılmasına aid çoxlu sayda faktlar mövcuddur.

Ş. Fətullayev-Fiqarovun rus dilində nəşr olunmuş "XVIII əsrin sonu – XIX əsrdə Quba şəhər tikintisinin inkişafı" adlı məqaləsində Quba şəhərinin qala divarları haqqında aşağıdakı məlumat verilir:

"Quba şəhərinin qala divarları çiy kərpiçdən inşa edilmiş, narınqala və ya xan qəsrinə malik olmamışdır. Qalanın üç qapısı, Amsar, Bakı və orta qapıları, xan sarayının qarşısındakı meydandan başlanğıcını götürən 3 küçəsi olmuşdur. Qala çaydan saxsı borular vasitəsilə su ilə təmin olunurdu. Qalanın şərq hissəsi, yəni Bakı qapısı tərəf, qərb hissəsi ilə müqayisədə daha çox məskunlaşmışdı.




*Quba qalasının açarı ( Azərbaycan Tarix Muzeyi)*

1811-ci ildən etibarən Quba qalasında ciddi möhkəmləndirmə işləri aparılmış, qərb və şərq tərəfdən qala divarları fleşlər vasitəsilə möhkəmləndirilmişdir. Cənub divarının mərkəzində bastion inşa edilmiş, bütün köhnə divarlar bərpa və təmir edilmişdir.

Ş.Fətullayev-Fiqarov Quba qalasının 1811-ci ilə aid hərbi planına istinadən qeyd edir ki, qala-şəhər Qudyalçayın yuxarı axarı boyunca qərb-şərq istiqamətində uzanmaqla möhkəm olmayan çiy kərpicdən hörülmüşdür. Qala divarlarının hündürlüyü 3-4 sajen (8,56 m), eni bir sajen (2,14 m) olmuşdu. Qalanın əhatə etdiyi sahənin uzunluğu 400 sajen (856 m.), eni isə 130 sajendən (278,2 m.) ibarət idi [39]. Qalanın mərkəzində 50 sajen (107 m.) ölçüdə bazar var idi [32].



***Qalanın bir hissəsini əhatə etmiş yüksəkliyin Qudyal çay tərəfdən görünüşü***

Yer üzündən silinmiş Quba qalası haqqında uzun araşdırmalara baxmayaraq çox təəssüf ki, son günlərə qədər qalanın planını əldə etmək mümkün olmamışdır. Nəhayət uzun axtarışlardan sonra Quba qalası haqqında hələlik yeganə tarixi təsvir olan planı əldə edə bildik. Bu planı Ş. Fətullayev-Fiqarovun Rusiya arxivindən götürərək öz məqaləsində dərc etmişdir [39].



***Quba qalasının planı (1811-ci il) [39].***

1810-cu ildə Quba şəhəri (qalada) 310 həyətdən, Quba şəhərətrafı Yəhudi qəsəbəsi (Kulqit) 124 həyətdən ibarət idi. Şəhər əhalisindən Şeyxəli xanın dövründə heç bir vergi yığılmırdı [9, s.104-105].

A.İ.Axverdov qeyd edir ki, "Şeyxəli xanın dövründə Quba şəhəri ilə yanaşı, ətraf kəndlər də həddindən artıq dağıdılmış vəziyyətə düşmüşdür. Quba şəhərində özünü müdafiə

etməyə hazır olan 500 nəfər kişi cinsli əhali yaşayır. Onlar xanın yaxın adamlarmdan ibarət olub ən yaxşı hazırlıqlı və üstün qoşun hissəsi sayılır. Xidmətlərinə görə xan onların hamısınma kənd bağışlayıb" [9, s.105; 22, s.221]

Rus tarixçisi P.Butkov Quba qalasındakı Xan sarayı haqqında qeyd edir ki, "Şeyxəli xanın evi zərif kərpiclər və yonulmamış daşlardan tikilməklə üzlənməmişdir: bəzi otaqlar tamamilə üzlənmişdir və onlardakı sənətkar işinə təəccüblənməmək mümkün deyil. Alebastr üzərində oyma işləri isə elə səviyyədədir ki, təqlid edilməyə layiqdir. Plafonlar gül rəsmləri ilə bəzədilmişdir" [24].




1806-cı il noyabrın 11-də rus qoşunlarının Quba xanlığını işğal etməsindən, xüsusilə də 1806 – 1810-cu illərdə çar Rusiyasına qarşı mübarizədən və 1837-ci il üsyanından sonra Quba şəhərinin qala divarları müdafiə istekamı kimi artıq öz əhəmiyyətini itirdiyinə görə qala divarları boyu qazılmış xəndəklər doldurulmuşdu.

Quba qalasının küçələri çox darısqal olduğundan çar Rusiyası məmurları 1834-cü ildə Quba qalasında "məhəllələrin düzgün inşa edilməsi və küçələrin Qubada yerləşən qarnizon tərəfindən rahat istifadə ediləcək hala gətirilməsi üçün" inşaat layihəsi təsdiq etmişlər [36].

Çar Rusiyası XIX əsrin 30-cu illərində baş vermiş üsyanları, o cümlədən 1837-ci il Quba üsyanını da yatırdıqdan sonra 40-cı il islahatlarına başladı. Quba şəhəri qala divarlarında kənarlara doğru genişləndirildi. Bu dövrdə Qubada mütəşəkkil təşkil edilmiş planlaşdırma və inşaat işləri həyata keçirilirdi. Qısa zamanda şəhərdə tikilmiş kərpic və daş binaların sayı 780-ə çatdı. Lənkəran şəhərində 298 oxşar tikili var idi. Müqayisə üçün qeyd edək ki, bu dövrdə Qubadakı tikililər Lənkərandakılardan iki dəfədən çox idi [39].

Akademik Ş.Fətullayev XIX əsrdə Azərbaycan şəhərlərinin inkişafı ilə əlaqədar tarixi abidələrin, o cümlədən Quba qalasının sökülməsini öz əsərlərində daim tənqid etmişdir. Ş.Fətullayev 1873-cü ildə hazırlanmış Gəncə şəhərinin baş planında şəhər mərkəzi köklü dəyişikliyə məruz qalmaqla Gəncə qalasının qaldırılmasını, həmçinin tarixi orta əsr qala divarlarının da dağıdılmasını yanlış hesab etmiş, Şəki, Şuşa və Lənkəran, əsasən də Bakı şəhərində orta əsr memarlıq abidəsi sayılan qala divarları və istehkam qurğularının saxlanmasının vacibliyini göstərmişdir. O, Hacıkənd, Şuşa, Şəki, Quba, Lənkəran və digər şəhərlərin XIX və XX əsrin əvvəllərində tərtib olunmuş baş planlarına öz münasibətini bildirməklə onların mənfi və müsbət tərəflərini göstərmişdir [5, s.21-22].

Akademik Ş.Fətullayevlə yanaşı digər azərbaycanlı müəlliflər də Quba qalasının daxilində olan tikililər haqqında məlumatlar vermişlər. Tarixçi Q.Abdullayev Hüseynəli xan tərəfindən tikilmiş Xan sarayı haqqında yazır: "Bişmiş kərpicdən inşa olunmuş bu sarayın tavanı gül şəkilləri ilə, divarları isə zəngin kirəc dekorasiyası və təsvirləri ilə bəzədilmişdir" [18, s.189].

Quba əhalisi ilə qalanın yaxınlığında Qudyal çayın digər sahilində yerləşən yəhudi qəsəbəsinin əhalisi arasında daim yaxşı münasibətlər mövcud olduğundan XIX əsr rus mənbələrində məlumat verərkən bəzən bu əhalini ayırmayaraq bir əhali kimi qeyd ediblər. Quba şəhərinin tərkib hissəsi olan, lakin şəhər qalasından kənarda, Qudyal çayın sol sahilində yerləşən yəhudi qəsəbəsini tarixi mənbələrdə bəzən Kulqat, bəzən Yəhudi Slobodası, bəzən isə Qırmızı Sloboda kimi adlandırmışlar.

Sloboda rus sözü olub "məhəllə" mənasını veririr. Məsələn, XIX əsrin 50-60-cı illərində Bakıda molokanların yaşadığı ərazi "Molokan məhəlləsi (Молоканская слобода) adlanmışdı. Kulqat adı isə qəsəbənin yerləşdiyi ərazidən 3 km yuxarıda 1731-ci ildə əsası qoyulmuş, yəhudilərin yaşamış olduğu qəsəbənin adıdır. Kulqat qəsəbəsi hərbi əməliyyatlar nəticəsində dağıdıldıqdan sonra, Quba xanı Hüseynəli xan dağ yəhudilərinə xoş münasibəti olduğuna görə onları Quba qalasının yaxınına, Qudyal çayın sol sahilinə köçürərək burada yaşamalarına şərait yaradıb [3].

Əvvəllər bura Yəhudi məhəlləsi adlansa da sovet Rusiyasının işğalçı XI Qırmızı ordusu Azərbaycana daxil olarkən

bu qəsəbədən keçidiyinə görə sovet dövründə bu ordunun şərəfinə qəsəbə "Qırmızı qəsəbə"adlandırılıb [16].

Quba şəhərinin qala divarları ilə bağlı elmi tədqiqatların nəticələrinə əsasən aidiyyatı qurumlar qarşısında bir neçə dəfə məsə qaldırılmış, rəsmi məktublarla müraciətlər olunmuşdur. Lakin çox təəssüf ki, Quba qalası ilə bağlı qaldırılan məsələlərə buna məsul olan dövlət qurumları heç bir reaksiya verməmişdir. Məhz bu cür yarıtmaz fəaliyyətin nəticəsidir ki, Quba qalasının şəhər divarlarından kənara çıxmaq üçün inşa edilmiş yeraltı tunellərin bir hissəsi 2011-ci ildə kanalizasiya xətləri çəkilərkən məsuliyyətsiz şəxslər tərəfindən dağıdılmışdır. Tunelin salamat qalan hissələri isə Quba şəhərin mərkəzi ərazisində, yerin altında öz xilaskarlarını gözləməkdədir.

Quba qalası kimi yer üzündən silinmiş Gəncə, Lənkəran və s. şəhərlərin qala divarlarının sonradan maketləri hazırlansa da, Quba qalası haqqında bunu demək mümkün deyil.




*Gəncə qalasının maketi*



*Lənkəran qalasının maketi*

Quba-Bakı yolu üzərində simvolik bir yeni tikili var ki, bunu tarixən mövcud olmuş Quba qalasına aid etmək mümkün deyil. Çünki bu tikili Quba qalasının yerinə və planına uyğun deyil.



*Bakı – Quba yolu üzərində simvolik yeni tikili*

Fikrimizcə işğalçılar tərəfindən dağıdılmış, yer üzündən silinmiş Quba qalasının daha geniş tədqiq olunmasına,

Gəncə, Lənkəran qalaları kimi Quba qalasının tarixən olduğu yerdə bərpa edilməsinə və ya maketinin hazırlanıb məlumat lövhələri ilə qala divarlarının yerində qoyulmasına ciddi ehtiyac var. Bu işlərin həyata keçirilməsi Azərbaycan tarixini ağ və qara ləkələrdən təmizləməklə yanaşı, ölkədə turizmin inkişafına da yaxından kömək göstərə bilər.



*Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası və ATMU nümayəndələri layihə ilə bağlı Qubada keçirdiyi görüşlər*





*Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası və ATMU nümayəndələri layihə ilə bağlı Qubada keçirdiyi görüşlər*





*Qala divarlarından kənara çıxmaq üçün tikilmiş yeraltı tunellərin bir hissəsinin keçdiyi ərazi*





*Qala divarlarından kənara çıxmaq üçün tikilmiş yeraltı tunellərin bir hissəsinin keçdiyi ərazi*



*Qaba qalasının divarlarının bir hissəsinin yerləşdiyi ərazi*

## İstifadə olunmuş ədəbiyyat

*Azərbaycan dilində*

1. Azərbaycan tarixi. Yeddi cilddə. IV cild (XIX əsr). Bakı. Elm‖. 2007. 504 səh. + 48 səh. illüstrasiya.
2. Abbasqulu ağa Bakıxanov. Gülüstanı-İrəm. Bakı, 2000, 224 s.
3. Əlixanlı A. Azərbaycanda yəhudilərin məskunlaşdırılması tarixindən. Tarix və onun problemləri" jur. 2009 №3, s. 28
4. Fətullayev-Fiqarov Ş. Abşeron memarlığı. Bakı, 2013, 476 s.
5. İncəsənət və mədəniyyət problemləri. Beynəlxalq Elmi Jurnal 2014, N 2 (48)
6. İskəndər bəy Hacınski. Qubalı Fətəli xanm həyatı. Bakı, 1959, s. 53
7. Mustafazadə T. Quba xanlığı. Bakı: Elm, 2005, 457 s.
8. Mustafayev A.N. XVIII əsrin sonu XIX əsrin son qərinəsində şimal şərqi Azərbaycanın etnodemoqrafik drumuna dair. Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. 2005, № 4, s. 212
9. İbişov Salman. Quba xanlığı: əhali tarixi və azadlıq mücadiləsi. Bakı, 2012, 336 s.
10. Şahin Fazil. Quba tarixi. Bakı: Şərq-Qərb, 2016, 700 s.
11. Tangudur S. Şamil Fətullayev-Fiqarovun həyatında memarlıq. 2010. Ege Basım/İstanbul.
12. Xəlilov M. Quba şəhərinin meydana gəlməsi probleminə dair. (Respublika arxeoloq və etnoqraflarının elmi konfransının materialları. Bakı 1992,s.28-39
13. Zülfüqarlı M.P. Unudulmuş qəhrəman Quba qalası. "525- ci qəzet" 19 dekabr 2008-ci;
14. Zülfüqarlı M.P. Quba qalası-yer üzündən silinmiş tarix (1747-1870) Turizm və Qonaqpərvərlik tədqiqatları. Beynəlxalq jurnal, №2-3, 2020 s. 70-81

15. “Bakı xəbər” qəz.; qhtxeber.az
16. http://theology.bsu.edu.az/az/content/da_yhudilrinin_qrmz_qsbsi
17. https://www.google.com/search?q=1837-ci+il+Quba+%C3%BCsyan

*Rus dilində*

18. Абдуллаев Г.Б. Азербайджан в XVIII в. и взаимоотношения его с Россией. Баку, 1965,621 с.
19. Абдуллаев Г. Иранские происки против Кубинского ханства и Картли-Кахетинского царства в 1776 и 1778 и гг. Известия АН Азерб. ССР, 1960, № 4.
20. Ахундов Д. А. А 95 Архитектура древнего и раннесредневекового Азербайджана. Б.: Азернешр, 1986. 311 с.,
21. Анисимов И.Ш. Кавказские евреи-горцы. М., 1888, 152 с.
22. Ахвердов А.И. Краткое описание кавказских народов./ История, География и Этнография Дагестана. Махачкала, 1958, с. 213-228.
23. Березин, И. (1850). Путешествие по Дагестану и Закавказию, 63-64.
24. Бутков, П. (1869). Материалы для новой истории Кавказа с 1722 г. 1803 гг., ч.1, 286.
25. Бутков П.Г. Выдержки из «Проекта отчета о персидской экспедиции в виде писем». 1796 г. – ИГЭД, М., 1958, с. 204.
26. Биберштейн М. Описание провинции расположенных на левом берегу Каспийского моря между реками Терек и Кура. / Научный Архив Института Истории НАН Азербайджана, (НАИИ), инвентар 466.
27. Город Куба, Кавказский календарь на 1846 г., 51. (s. 50)
28. Дубровин Н. Закавказье от 1806 до 1866 гг. СПб. 1866.

29. Дубровин Н. Поход Графа Зубова в Персию в 1796 г.,с. прилож. оперативной карты похода гр. Зубова в Персию в 1796 г., и план осады Дербента. / Военный сбор. 1874 г., №2-6.
30. Мамед-заде Камиль Мамедович СТРОИТЕЛЬНОЕ ИСКУССТВО АЗЕРБАЙДЖАНА (с древнейших времен до XIX в.) Baku 198Ş334 с.
31. Камеральное описание Кубинской провинции, составленное в 1831 году коллежским регистратором Хотяновским. Государственный Исторический Архив Азербайджанской Республики (ГИААР), Казенная экспедиция Верховного Грузинского правительства, ф. 24, оп. 1. дд. 342-345. 69. «Кавказский календарь» на 1847 г.
32. Константинов, В.. Куба – уездный город Дербентской губернии, Кавказский календарь на 1852 г., 335.
33. Мустафаев Дж.М. Северные ханства Азербайджана и Россия (конец XVIII-начало XIX вв.). Баку: Элм, 1989. 128 с.
34. Мамедов Н. История города Куба в XIX-начале XX вв. Диссер. на соиск. канд, истор. наук, Баку: 1989, 185 с.
35. Новрузова Дж. Архитектурные рисунки. Шамиль Фатуллаев-Фигаров. – Б., 2005, 191 с.
36. Сумбатзаде А. Кубинское восстание. Баку: Изд-во Академии Наук Азербайджанской ССР, 1961, 121 с.
37. Указы кубинских ханов. Тбилиси, 1937, 96 с.
38. Фатуллаев Ш. Градостроительство Баку XIX-нач. XX века. Ленинград, Стройиздат, 1978, с. 120
39. Фатуллаев, Ш. С. (1974). Градостроительное развитие города Кубы в конце XVIII и XIX вв (Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri (Ədəbiyyat, dil və incəsənət seriyası), 1974,№1). Баку.
40. Фатуллаев Ш.С. Архитектура Азербайджана XIX – начала XX веков. Ав тореф. дисс… докт. архитектуры. – Б., 1979.

41. Фатуллаев Ш.С. Градостроительство и архитектура Азербайджана XIX – начала XX века. – Л., 1986,456 с.
42. Фатуллаев-Фигаров Ш.С. Зодчество Апшерона. – Б., 2013, 526 с.
43. https://icherisheher.gov.az/az/35-tarixi-arayish
44. https://portal.azertag.az/az/node/10426
45. https://az.trend.az/azerbaijan/society/2257956.html
46. https://kataloq.gomap.az/az/all-poi/culture/
47. https://news.milli.az/society/497452.html

Çapa imzalanıb: 02.08.2023.
Format: 60x84 1/16. Qarnitur: Times.
Həcmi: 2,75 ç.v. Tiraj: 100. Sifariş № 164.

MÜTƏRCİM
1993

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
Tel./faks 596 21 44; (055) 715 63 99
*e-mail: mutarjim@mail.ru*
www.mutercim.az